AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NAXÇIVAN BÖLMƏSİ

*Əlyazması hüququnda*

İLHAMİ NİZAM OĞLU ƏLİYEV

# AZƏRBAYCANIN NAXÇIVAN BÖLGƏSİ SƏFƏVİLƏR DÖVLƏTİNİN TƏRKİBİNDƏ

**İxtisas 5503.02 – Vətən tarixi**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

NAXÇIVAN - 2013

Dissertasiya işi AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın orta əsrlər tarixi" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Hacıfəxrəddin Yəhya oğlu Səfərli**
Tarix üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Oqtay Balaqədəş oğlu Sultanov**
Tarix üzrə elmlər doktoru, professor

**İbrahim Feyzulla oğlu Kazımbəyli**
Tarix üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat:** Azərbaycan MEA Milli Azərbaycan Tarixi Muzeyinin "Azərbaycan tarixinin elmi ekspozisiyası" şöbəsi

Müdafiə „13" iyul 2013-cü il tarixdə saat 11.00-da Azərbaycan MEA-nın Naxçıvan Bölməsinin nəzdində yaradılmış D.01.211 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, I mərtəbə, akt zalı

Dissertasiya ilə AMEA Naxçıvan Bölməsinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat «_____» ___________ 2013-cü il tarixdə göndərilmişdir.

**D.01.211 Dissertasiya**
**Şurasının elmi katibi:** **E.A.ŞIXƏLİYEV**
**Tarix üzrə fəlsəfə doktoru, dosent**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan diyarı tarixin müxtəlif dövrlərində Azərbaycanın quldar və feodal dövlətlərinin tərkibində olmuş, ölkəmizin sosial-siyasi həyatında, dövlətçilik tarixində mühüm rol oynamış, zəngin tarixi yol keçmişdir. İndiyədək Naxçıvan tarixinin bir sıra məsələləri müəyyən qədər öyrənilsə də, hələ də bəzi problemlər öz tədqiqini gözləməkdədir. Müasir dövrdə ermənilərin Azərbaycana, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsinə ərazi iddialarının gücləndiyi bir şəraitdə bu ərazinin tarixinin və mədəniyyətinin müxtəlif problemlərinin dərindən, hərtərəfli və obyektiv şəkildə araşdırılması, onun xalqımıza və beynəlxalq ictimaiyyətə çatdırılması Azərbaycan tarixşünaslığı qarşısında duran aktual problemlərdən biridir. Məhz bu səbəbdəndir ki, "Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir. Əgər Azərbaycanın tarixi haqqında, ümumiyyətlə, bir çox işlər görülübsə, Naxçıvan tarixi haqqında, qədim tarixi haqqında və Naxçıvanın bir diyar kimi öyrənilməsi barədə çox az iş görülübdür" – deyən xalqımızın ümummilli lideri Heydər Əliyev bir sıra çıxış və məruzələrində, xüsusilə 12 avqust 2002-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən AMEA Naxçıvan Bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə Naxçıvan tarixinin dərindən və obyektiv öyrənilməsini tarixçilər qarşısında aktual bir vəzifə kimi qoymuşdur[1].

Azərbaycanın orta əsrlər tarixində Naxçıvanın Səfəvilər dövrü tarixinin öyrənilməsi də bu baxımdan aktual mövzulardan biridir. Səfəvilər dövlətinin banisi I Şah İsmayılın hələ şahlıq taxtına çıxmamışdan əvvəl tutduğu Azərbaycan bölgələrindən biri də Naxçıvan olmuşdur. Ən əsası isə yeni dövlətin elan olunmasına aparan yol bu bölgədən keçmişdir. Naxçıvan 1501-ci ildən başlayaraq kiçik istisnalar nəzərə alınmazsa, iki əsrdən artıq bir dövr ərzində qüdrətli Səfəvi imperiyasının tərkibində idarə edilmişdir. Belə geniş bir zaman kəsiyində Səfəvilər dövlətinin daxilində baş vermiş ictimai-siyasi, iqtisadi və mədəni proseslər digər Azərbaycan bölgələri kimi Naxçıvana da təsir etmişdir. Daxili inkişaf, müəyyən vaxtlarda isə tənəzzül mərhələlərindən başqa ölkə ərazisinə edilmiş bir sıra xarici müdaxilələr də bölgədən yan keçməmişdir. Bu zaman Naxçıvan bölgəsində sabitlik dövrü ilə yanaşı, xarici və daxili müdaxilələrin təsiri ilə müəyyən illərdə gərgin

[1] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. 40-cı kitab, Bakı: Azərnəşr, 2012, s. 211

siyasi vəziyyət də yaşanmışdır. Belə situasiyalar isə bir sıra tarixi proseslərin gedişində bəzi dəyişikliklərin yaranmasına səbəb olmuşdur ki, onların tədqiqi günümüz üçün çox vacibdir. İlk olaraq Səfəvilər dövləti kimi qüdrətli bir türk imperiyasının tərkibində olmaq əhalisi müsəlman türklərdən ibarət olan Naxçıvan ölkəsi üçün çox əhəmiyyətli və arzuolunan idi. Çünki bu idarəçilik həm davamlı, həm də daha etibarlı olduğundan tarixin bu dönəmində bölgənin müəyyən qədər sabit vəziyyətdə idarə olunmasına imkan yaratdı. Elə bu dövrdən başlayaraq Səfəvi hökmdarları tərəfindən Naxçıvanın idarə olunması yerli türk tayfalarından biri olan və Azərbaycanın ictimai-siyasi həyatında, dövlətçilik tarixində böyük rol oynayan Kəngərli tayfa başçılarına həvalə olundu. Səfəvi şahları tərəfindən belə seçimin edilməsi Naxçıvana xüsusi diqqət göstərilməsindən xəbər verirdi. Dissertasiyada bölgənin idarə olunmasında Kəngərli tayfa nümayəndələrinin fəal rolundan bəhs edilməsi Azərbaycanda dövlətçilik ənənələrinin öyrənilməsi baxımından mövzunun aktuallığını artırır.

Bu gün Azərbaycan tarixinin öyrənilməsi sahəsində gündəmdə olan məsələlərdən biri də Azərbaycanın tarixi coğrafiyasının dərindən araşdırılması məsələsidir. Ölkə ərazisinin nəinki bütöv şəkildə, həm də ayrı-ayrı bölgələrinin tarixi sərhədlərinin müəyyənləşdirilməsi onun tarixən hansı torpaqlara sahib olduğunu sübut etməyə kömək edir. Səfəvilər dövlətinin inzibati ərazi quruluşuna uyğun olaraq Azərbaycan ərazisi bu imperiyanın bölündüyü bəylərbəyiliklərdən bir neçəsinin tərkibinə daxil idisə, Naxçıvan bölgəsi isə həmin bəylərbəyiliklərdən XVII əsrin II yarısınadək Təbriz, sonra isə Çuxursəd bəylərbəyiliyinə tabe olan, ölkə (tümən) adlı kiçik inzibati vahidin torpaqlarını özündə birləşdirirdi. Tədqiq edilən dövrdə Naxçıvan ölkəsinin sərhədlərinin araşdırılması sonradan itirilmiş tarixi torpaqlarımızın sərhədlərini müəyyən etməyə və onların bugünkü aqibətini açıqlamağa imkan verir. Təbii ki, belə aktual məsələnin həlli müasir dövrdə torpaqlarımıza qarşı əsassız ərazi iddiaları irəli sürənlərə layiqli cavab verməyə və itirilmiş əraziləri geri qaytarmağa elmi əsas verir. Belə ki, Dərələyəz və Sisyan kimi tarixi Azərbaycan torpaqlarının bəhs edilən dövrdə Naxçıvan tüməninin tərkibində olmasının sübutu göstərilən məsələyə parlaq nümunə ola bilər.

Dissertasiya işində bölgə əhalisinin etnik tərkibi, bəhs edilən dövrdə burada baş vermiş demoqrafik proseslər və s. məsələlərin araşdırılması mövzunun aktuallığını daha da artırır. Çünki bu bölmə də köklü əhalisi Azərbaycan türklərindən ibarət olan bölgəyə qarşı əsassız erməni iddialarına layiqli cavab verməyə imkan yaradır.

Naxçıvanın hələ qədimdən kənd təsərrüfatı, sənətkarlıq və ticarətin inkişaf etdiyi Azərbaycan bölgələrindən biri olması tarixdən müəyyən qədər məlumdur. Bəhs olunan dövrdə bölgəyə səfər etmiş səyyahlar, tacirlər, diplomatlar və s. əcnəbi nümayəndələr Naxçıvan torpağının yüksək məhsuldarlığından, burada müxtəlif sənət sahələrinin inkişaf etməsindən, bölgənin geniş ticarət əlaqələrinin olmasından bəhs etmişlər. Bu baxımdan Səfəvilər dövründə bölgənin iqtisadi həyatında baş vermiş dəyişikliklər haqqında təqdim olunan məlumatlar çox əhəmiyyətlidir. Çünki Səfəvilər dövlətinin əhatə etdiyi böyük ərazi daim Səfəvi şahlarının diqqət mərkəzində olan Naxçıvan bölgəsinin daha rahat və geniş iqtisadi əlaqələr qurmasını şərtləndirirdi. Mühüm ticarət yollarının, xüsusilə Böyük İpək Yolunun üzərində yerləşən bölgənin hansı daxili vilayətlər və xarici ölkələrlə mal mübadiləsi aparmasının öyrənilməsi mövzunun aktuallığını artıran cəhətlərdən biridir.

**Mövzunun araşdırılması səviyyəsi.** Naxçıvanın Səfəvilər dövrü tarixi tədqiqatçılar tərəfindən yeri gəldikcə müəyyən qədər araşdırılsa da bir sıra məqalələri çıxmaqla, bu problem indiyədək sistemli tədqiqat obyektinə çevrilməmiş, dissertasiya səviyyəsində öyrənilməmişdir. Yalnız R.Məmmədov "Naxçıvan şəhərinin tarixi oçerki" adlı monoqrafiyasında və bir sıra məqalələrində Naxçıvan şəhərinin XVIII əsrədək olan tarixindən sistemli şəkildə bəhs etmişdir[1].

Ümumiyyətlə, Sovet dövrü tarixşünaslığında tədqiqatçı-alimlərdən O.Əfəndiyev[2], Ə.Rəhmani[3], S.Məmmədov[4], M.Heydərov[5] və başqaları

---

[1] Məmmədov R.A. Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü). Bakı: Elm, 1977, 158 s.; Yenə onun. Yaxın Şərq və Qərbi Avropa səyyahları Naxçıvan şəhərinin orta əsrlər tarixi haqqında // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. İctimai elmlər seriyasi, 1962, № 4, s. 11-22

[2] Əfəndiyev O.Ə. Azərbaycan Səfəvilər dövləti. Bakı: Şərq-Qərb, 2007, 344 s.; Yenə onun. Образование Азербайджанского государства Сефевидов в начале XVI в. Баку: Изд-во АН ССР, 1961, 208 с.

[3] Рахмани А.А. Азебайджан в конце XVI и в XVII веке. Баку: Элм, 1981, 240 с.; Yenə onun. «Тарих-и алам арай-и Аббаси» как источник по истории Азербайджана. Баку: Элм, 1960, 192 с.

[4] Məmmədov S.A. Azərbaycan XV-XVIII əsrin birinci yarısında. Bakı: APİ-nin nəşri, 1981, 102 s.; Yenə onun. Азербайджан по источникам XV-первой половины XVIII вв. Баку: Элм, 1993, 240 с.

[5] Гейдаров М.Х. Города и городское ремесло Азербайджана XIII-XVII вв. Баку: Элм, 1982, 284 с.; Yenə onun. Социально-экономические отношения и ремесленные организации в городах Азербайджана в XIII-XVII вв. Баку: Элм, 1987, 212 с.

Səfəvilər dövrünə aid əsərlərində konkret olaraq Naxçıvan haqqında geniş məlumat verməsələr də, yeri gəldikcə bölgə ilə bağlı bəzi məsələlərdən bəhs etmişlər. Həmçinin türk və rus müəlliflərindən İ.Danişmənd[1], F.Kırzıoğlu[2], B.Kütükoğlu[3], F.Sümer[4], İ.Petruşevski[5], A.Novoseltsev[6] və başqalarının əsərlərində də bölgənin bəhs edilən dövrə aid müəyyən tarixi məqamları az da olsa öz əksini tapmışdır.

Müstəqillik illərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və ciddi səyləri nəticəsində Naxçıvan tarixinin dərindən araşdırılmasına başlanıldı. Bundan sonra bölgə tarixinin digər dövrləri ilə yanaşı Səfəvilər dövrünə aid müəyyən tədqiqatlar aparılmışdır. Tarix üzrə elmlər doktorları S.Onullahi, T.Mustafazadə, Ş.Fərzəlibəyli, H.Səfərli, tarix üzrə fəlsəfə doktorları T.Nəcəfli, G.Nəcəfli müxtəlif vaxtlarda Naxçıvanın Səfəvilər dövrü tarixi ilə əlaqəli bir neçə məqalə nəşr etdirmiş və həmin məqalələrdə müəyyən məsələlərlə bağlı əhəmiyyətli məlumatlar vermişlər. Tədqiqatlar zamanı T.Mustafazadə bəhs edilən dövrə aid Osmanlı mənbələrindən[7], S.Onullahi fransız səyyahı J.B.Tavernyenin qeydlərindən[8], Ş.Fərzəlibəyli isə XVII-XIX əsrlərə aid sənədlərdən[9] bəhs edərək mövzuya dair bəzi problemlərə aydınlıq gətirmişlər. H.Səfərli "Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər" və "Ordubad şəhərinin müsəlman epiqrafikası

---

[1] Danişmend İ.H. İzahlı Osmanlı tarihi kronolojisi: 4 ciltte, II c., İstanbul, Türkiye Basımevi, 1948, 567 s.

[2] Kırzıoğlu F. Osmanlıların Kafkaz ellerini fethi (1451-1590). Ankara: Türk Tarih Kurumu Basımevi, 1993, 550 s.

[3] Kütükoğlu B. Osmanlı-İran siyasi münasebetleri (1578-1612). İstanbul: İstanbul Fetih Cemiyeti, 1993, 340 s.

[4] Sümer F. Safevi devletinin kuruluşu ve gelişmesinde Anadolu türklerinin rolü. Ankara: Türk Tarih Kurumu Basımevi, 1992, 265 s.

[5] Петрушевский И.П. Азербайджан в XVI-XVII веках / Сборник статей по истории Азербайджана. Баку: Изд-во АН Азерб. ССР, 1949, 225-298 с.; Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI- начале XIX вв. Ленинград: Изд.-во ЛГУ, 1949, 384 с.

[6] Новосельцев А.П. Города Азербайджана и восточной Армении в XVII-XVIII вв. // История СССР, 1959, № 1, с. 87-108.

[7] Mustafazadə T.T. Naxçıvan vilayəti XVIII yüzillikdə / Naxçıvan Muxtar Respublikası. Məqalələr toplusu. Bakı: Elm, 1999, s. 38-62

[8] Onullahi S.M. Jan Batist Tavernye Naxçıvan haqqında // Bakı Universitetinin Xəbərləri, 1999, № 3, s. 87-93.

[9] Fərzəlibəyli Ş.F. Naxçıvanın XVII-XIX əsrlər tarixinə dair qiymətli sənədlər / Naxçıvan Muxtar Respublikası. Məqalələr toplusu. Bakı: Elm, 1999, s. 79-94

abidələri”[1] monoqrafiyalarında Naxçıvan bölgəsinin, o cümlədən Ordubad şəhərinin Səfəvilər dövrü tarixindən geniş bəhs etmişdir. Həmçinin F.Yəhyaoğlunun “Naxçıvan Səfəvilər dövründə”[2], T.Nəcəflinin “XV-XVI əsrlərdə Naxçıvanın ictimai-iqtisadi həyatı”, “Naxçıvan XVI-XVII əsrlərdə”[3], G.Nəcəflinin “Ermənilərin Azərbaycanın Naxçıvan bölgəsini ələ keçirmək üçün tərtib etdiyi layihələr (XVIII əsr)”[4] adlı məqalələrində bəhs edilən zaman kəsiyində Naxçıvanın tarixi ilə bağlı bəzi məsələlər araşdırılmış və həmin dövrdə bölgəyə qarşı yönəlmiş erməni hiylələrinin iç üzü açıqlanmışdır.

**Tədqiqatın obyekti.** Azərbaycanın qədim bölgələrindən biri olan Naxçıvan diyarının Səfəvilər dövrü tarixi tədqiqatın əsas obyektidir. Mövzu xronoloji baxımdan Səfəvilər dövlətinin yaranmasından (1501) onun süqutunadək (1736) olan dövrü əhatə edir. Bugünkü Naxçıvan Muxtar Respublikasının ərazisindən fərqli olaraq bəhs edilən dövrdə Naxçıvan bölgəsi “ölkə” inzibati ərazi vahidi kimi tarixi Azərbaycan torpaqlarının müəyyən hissəsini – şimaldan Dərələyəz (bəzi vaxtlarda ondan şimaldakı Zar-Zəbil də daxil olmaqla), şimal-şərqdən Sisyan, şərqdən Azadciran (indiki Ordubad), cənubdan və cənub qərbdən Araz çayı (bəzi vaxtlarda Arazın sağ sahilindəki torpaqların bir qismini özündə birləşdirən Qışlağat da daxil olmaqla), qərbdən Şərur nahiyyələrini öz sərhədləri daxilində birləşdirdiyindən tədqiqatın obyekti də əhatəli olmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyada qarşıya qoyulan əsas məqsəd Səfəvilər dövründə Naxçıvan bölgəsinin tarixinin dərindən və əhatəli şəkildə araşdırılmasıdır. Səfəvi imperiyası ərazisində baş verən

---

[1] Səfərli H.Y.Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər. Bakı: Elm, 2003, 392 s. Yenə onun. Ordubad şəhərinin müsəlman epiqrafikası abidələri. Bakı: MBM, 2009, 191 s.

[2] Яхьяоглу Ф. Нахчыван при сефевидах // İRS-Наследие, 2007, №3(27), s. 30-32;

[3] Nəcəfli T.H. XV-XVI əsrlərdə Naxçıvanın ictimai-iqtisadi həyatı // Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri, 2009, № 2 (27), s. 51- 60; Yenə onun. Naxçıvan XVI-XVII əsrlərdə / Naxçıvan bu gün: İslahatlar, perspektivlər. 5-6 oktyabr 2007-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları. Bakı: Nurlan, 2008, s. 86-97; Yenə onun. Səfəvi-Osmanlı müharibələri və Naxçıvan (XVI-XVII əsrin əvvəlləri) / Naxçıvan Muxtar Respublikası. Məqalələr toplusu. Bakı: Elm, 1999, s. 62-73

[4] Nəcəfli G.C. Ermənilərin Azərbaycanın Naxçıvan bölgəsini ələ keçirmək üçün tərtib etdiyi layihələr (XVIII əsr) / Naxçıvan bu gün: islahatlar, perspektivlər. 5-6 oktyabr 2007-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları. Bakı: Nurlan, 2008, s. 105-112

siyasi hadisələrin dövlətin tərkib hissəsi kimi Naxçıvana təsiri, burada iqtisadiyyatın inkişafı və problemləri, yerli əhalinin tərkibi, onların əsas məşğuliyyət sahələri olmuş kənd təsərrüfatı, ticarət və sənətkarlığın vəziyyəti və s. məsələlərin öyrənilməsi, müvafiq mənbə və ədəbiyyatlardan yararlanaraq Naxçıvanın bu dövr tarixinin hərtərəfli şəkildə araşdırılması, bölgənin Azərbaycan türklərinə məxsus olduğunu tutarlı faktlarla sübut etmək əsas məqsəd kimi qarşıya qoyulmuşdur. Həmçinin həmin vaxt Naxçıvanın Azərbaycanın ayrılmaz bir parçası kimi mühüm əhəmiyyət kəsb etdiyini göstərmək də dissertsiyanın əsas məqsədlərindən biridir. Qeyd olunan məqsədə uyğun olaraq tədqiqatın qarşısında aşağıdakı vəzifələr qoyulmuşdur:

- Səfəvilər dövründə Naxçıvanda mövcud olmuş siyasi vəziyyəti tədqiq etmək;
- Osmanlı-Səfəvi müharibələrinin Naxçıvan bölgəsinə təsirini araşdırmaq;
- Bölgənin kənd təsərrüfatı haqqında məlumat vermək;
- Ticarət əlaqələri və bu əlaqələrin bölgənin iqtisadi həyatında oynadığı rolu araşdırmaq;
- Sənətkarlığın inkişafını və onun daxili bazarda və xaricə ixrac edilən məhsulların sırasında tutduğu yeri aydınlaşdırmaq;
- Qədimdən Naxçıvan diyarının yerli sakinləri olmuş türk tayfalarının Səfəvilər dövründəki vəziyyəti haqqında ətraflı məlumat vermək və bu tayfaların bəhs edilən dövrdə də əhalinin əksər hissəsini təşkil etdiyini obyektiv faktlarla sübuta yetirmək;
- Səfəvilər dövründə Naxçıvan ölkəsinin hansı əraziləri əhatə etdiyini tədqiq etmək;
- Bəhs edilən dövrdə Naxçıvan ölkəsinin əhatə etdiyi sərhədlərin ermənilərin bölgəyə qarşı əsassız ərazi iddialarının ifşasında mühüm mənbə kimi əhəmiyyətini açıqlamaq;

**Tədqiqatın metodoloji əsası.** Dissertasiya milli-tarixi təcrübənin xüsusiyyətləri nəzərə alınmaqla nəzəri yanaşma, qarşılıqlı müqayisə, təhlil və elmi-tarixi ümumiləşdirmə kimi tədqiqat metodları əsasında yazılmışdır. Bu zaman dünya və vətən tarixşünaslığında əldə olunmuş mühüm elmi nailiyyətlərə və müddəalara istinad olunmuşdur.

Dissertasiya işində qarşıya qoyulan məqsəd və vəzifələrin yerinə yetirilməsi və ayrı-ayrı problemlərin həlli zamanı tədqiqatçılar tərəfindən təcrübədə qəbul olunaraq elmi şəkildə əsaslandırılmış, tarixi proseslərin səbəb və nəticə əlaqələrinin üzə çıxarılmasına kömək edən metodlardan da istifadə edilmişdir. Tədqiqata cəlb olunan qaynaqlara tənqidi yanaşmaq,

əldə olunmuş faktları təhlil və müqayisə etməklə çıxarılan elmi nəticələri ümumiləşdirmək vasitəsi ilə tarixi həqiqətləri obyektiv əks etdirmək də əsas tədqiqat metodlarından olmuşdur.

**Tədqiqatın mənbəşünaslıq bazası**. Dissertasiyanın əsas mənbəşünaslıq bazasını Səfəvi və Osmanlı tarixçilərinin yazdıqları tarixi əsər və salnamələr, müxtəlif illərdə bölgəyə səfər edən əcnəbi səyyah, coğrafiyaşünas və tarixçilərin əsərləri və yol qeydləri təşkil edir. Tədqiqatın əhatə etdiyi xronoloji dövrdə yaşamış və müəyyən hadisələrin canlı şahidi olmuş bir sıra görkəmli Səfəvi tarixçiləri - Həsən bəy Rumlu[1], İsgəndər bəy Münşi[2], Xacə Zeynalabidin Əli Əbdi bəy[3], Oruc bəy Bayat[4] və s. öz əsərlərində Azərbaycanın digər bölgələri ilə yanaşı yeri gəldikcə Naxçıvandan da müəyyən qədər bəhs etmişlər. İbrahim Peçevi[5], Solakzadə Mehmet[6], Selaniki Mustafa Əfəndi[7] və digər adlarını çəkmədiklərimiz o dövr Osmanlı tarixçiləri lazımı məqamlarda Naxçıvan bölgəsi ilə bağlı hadisələri, burada baş verən prosesləri öz əsərlərində işıqlandırmışlar. Tədqiqat işinin yazılmasında həmin əsərlərdən yeri gəldikcə istifadə edilmişdir.

Dissertasiya işinin yazılmasında Osmanlı mənbələrindən "Naxçıvan sancağının müfəssəl dəftəri"[8] və "İrəvan əyalətinin icmal

---

[1] Rumlu H. Əhsən ət-Təvarix: 3 cilddə, III c., Tehran: Əsatir, 1384, 1827 s.

[2] İsgəndər bəy Münşi. Tarix-i aləmara-yi Abbasi (Abbasın dünyanı bəzəyən tarixi). Farscadan tərcümə, ön söz, şərh və göstəricilərin müəllifləri AMEA-nın müxbir üzvü O.Əfəndiyev, tarix elmləri namizədi N.Musalı. I c., Bakı: Təhsil, 2009, 792 s.

[3] Xacə Zeynalabidin Əli Əbdi bəy. Təkmilətül-əxbar. Fars dilindən tərcümə, müqəddimə və şərhlər Əbülfəz Haşım oğlu Rəhimlinindir. Bakı: Elm, 1996, 200 s.

[4] Книга Орудж-бека Байата - Дон-Жуана Персидского. Перевод с английского, введение и комментарии д. и. н. Октая Эфендиева, к. и. н. Акифа Фарзалиева. Баку: Язычы, 1988, 216 с.

[5] Печеви И.Э. История. Перевод с турецкого языка и примечания акад. АН Азербайджанской ССР З.М.Буниятова. Баку: Элм, 1988, 100 с.

[6] Solakzadə M. Tarix. (Azərbaycan tarixinə dair iqtibaslar). Türk dilindən tərcümə edəni Z.M.Bünyadov. Bakı: Elm, 1992, 84 s.

[7] Selaniki Mustafa Əfəndi. Tarixi-Selaniki (Osmanlı türkcəsindən tərcümə edəni Z.M.Bünyadov). Bakı: Elm, 1992, 76 s.

[8] Naxçıvan sancağının müfəssəl dəftəri. Giriş və tərcümənin müəllifləri akademik Z.Bünyadov və t.e.n. H.Məmmədov. Bakı: Sabah, 1997, 336 s.; Naxçıvan sancağının müfəssəl dəftəri. Araşdırma, qeyd və şərhlərin müəllifi t.e.n. H.Məmmədov. Tərcümə edənlər akademik Z.Bünyadov və t.e.n. H.Məmmədov. Bakı: Elm, 2001, 376 s.

dəftəri"nin[1] böyük əhəmiyyəti olmuşdur. Osmanlı sultanları tərəfindən tərtib etdirilmiş statistik məlumat və hesabat xarakterli həmin sənədlər bu gün Türkiyə Respublikasının ayrı-ayrı arxivlərində saxlanılır. Hər iki sənəddə Naxçıvan bölgəsinə aid bir çox iqtisadi, tarixi-coğrafi və s. xarakterli dəqiq məlumatlar verilmişdir ki, dissertasiya işində onlardan geniş şəkildə istifadə edilmişdir. Bunlarla yanaşı 2011-ci ildə İstanbulda nəşr etdirilmiş "Osmanlı arxiv sənədlərində Naxçıvan"[2] adlı sənədlər toplusu da bir sıra sosial-siyasi məsələlərin araşdırılmasında mühüm əhəmiyyət daşımışdır.

Naxçıvanın bu dövr tarixinin tədqiq edilməsində Avropa və Osmanlı dövləti ərazisindən Səfəvi torpaqlarına müxtəlif illərdə səfər etmiş ingilis, fransız, alman, rus, türk və s. əcnəbi millətlərdən olan tacir, səyyah, coğrafiyaşünas və s. peşə sahiblərinin günümüzədək gəlib çatmış, müəyyən tarixi məqamları özündə əks etdirən əsərləri – yol qeydləri, gündəlikləri, səfər təəssüratları və s. mühüm rol oynamışdır. Onlardan E.Çələbi[3], J.Şardən[4], Q.Tektander[5], V.Alessandri[6], J.B.Tavernye[7], F.Kotov[8] və başqalarının adlarını xüsusilə qeyd etmək lazımdır. Bu müəlliflər bölgənin təsərrüfat həyatı, təbiəti, insanları, tarixi və o dövr abidələri haqqında qiymətli məlumatlar vermişlər ki, onlar bu gün bəhs edilən dövr üzrə Naxçıvan tarixinin tədqiqində əvəzedilməz mənbələrdən sayılırlar. Həmin mənbələrin əvəzsiz əhəmiyyətinin olması ilə yanaşı, həm də onların bəzisində bölgə ilə bağlı müəyyən yanlışlıqların və şişirtmələrin olmasının da şahidi olmuşuq ki, onlar qarşıya çıxdıqca dissertasiyada münasibət bildirilmiş və düzgün tərəfləri sübut edilmişdir.

---

[1] İrəvan əyalətinin icmal dəftəri. Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Z.Bünyadov və t.e.n. H.Məmmədov. Bakı: Elm, 1996, 184 s.

[2] Osmanlı arşiv belgelerinde Nahçıvan. İstanbul: Seçil Ofset, 2011, 568 s.

[3] Evliya Çelebi Seyahatnamesi: 10 ciltte, I-II c., İstanbul: Üçdal Neşriyat, 1985, 767 s.

[4] Şardən J. Səyahətnamə. Fransız dilindən tərcümə edəni V.Aslanov, Bakı: Elm, 1994, 96 s.

[5] Тектандер Г. Путешествие в Персию через Московию 1602-1603 гг. (пер. А.И.Станкевича). Москва: Университетская типография, 1896, 61 с.

[6] Venesiyalılar I Şah Təhmasibin sarayında (Mikele Membre və Vinçenso Alessandri). Bakı: Təhsil, 2005, 112 s.

[7] Onullahi S.M. Jan Battist Tavernye Naxçıvan haqqında // Bakı Universitetinin Xəbərləri, 1999, № 3, s. 87-93.

[8] Хождение купца Федота Котова в Персию. Москва: Восточной литературы, 1958, 112 с.

Tədqiqatın qarşısında qoyulan məqsəd və vəzifələrin uğurlu həllinə nail olmaq üçün qiymətli tərcümə əsərləri və sənəd toplularından istifadə edilmişdir ki, yeri gəldikcə onlar bölgənin tarixi ilə bağlı bir sıra yeniliklərin əldə edilməsinə kömək etmişdir. Məsələn, V.Minorskinin ingilis dilinə tərcümə etdiyi Səfəvilər dövlətinin son dövrünə aid qiymətli mənbə hesab edilən “Təzkirət əl-Müluk” əsəri digər Azərbaycan bölgələri ilə yanaşı Naxçıvanın da bu illərindən bəhs edən əhəmiyyətli faktları özündə qoruyub saxlamışdır. Həmçinin bununla yanaşı bir sıra tarixi məqamların dəqiqləşdirilməsində T.Musəvinin[1], E.Seyidbəylinin[2], Y.Marrın[3] və digər alimlərin fars dilindən tərcümə etdikləri sənəd məcmuələrindən istifadə etmək zərurəti yaranmışdır ki, müəyyən məqamlarda dissertasiyanın yazılmasında konkretlik baxımından onların rolu danılmazdır. Dissertasiyanın yazılmasında müasir informasiya texnologiyasının verdiyi imkanlardan – elektron kitabxana və elmi dərgilərdən, veb ünvanlarından və s. elektron vasitələrdən də geniş istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin elmi yenilikləri aşağıdakılardan ibarətdir:

- Mövzu ilk dəfə olaraq sistemli tədqiqat obyektinə çevrilmiş, hərtərəfli və kompleks şəkildə öyrənilmişdir;
- Səfəvilər dövründə bölgənin siyasi vəziyyəti ilk dəfə olaraq tədqiqata cəlb edilmiş, ölkə daxilində baş vermiş siyasi proseslərin bölgəyə təsiri tədqiq olunmuşdur;
- Tədqiq edilən dövrdə Naxçıvan bölgəsinin iqtisadi həyatında əhəmiyyətli rol oynayan kənd təsərrüfatının müxtəlif sahələri ilk dəfə olaraq dissertasiya səviyyəsində araşdırılmışdır;
- Bölgənin daxili və xarici ticarətinin vəziyyəti, bu ərazidən keçən karvan yollarının ölkənin iqtisadi inkişafına təsiri öyrənilmişdir;
- Bəhs edilən dövrdə Naxçıvanda fəaliyyət göstərən sənətkarlıq sahələri, sənətkarların istehsal etdikləri müxtəlif növ malların

---

[1] Musəvi T.M. Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər (XVI-XVIII əsrlər). Bakı: Elm, 1977, 238 s.

[2] Seyidbəyli E.M. Naxçıvan torpaq mülkiyyətinə aid XVII - XVIII əsr Kəngərli arxeoqrafik sənədləri. Bakı. Elm, 2000, 229 s.

[3] Передняя Азия в документах (серия памяти Ю.Н.Марра). Книга I. Нахичеванские рукописные документы XVII-XIX в.в. Перевод и комментарии К.Н.Смирнова и Дж.Гаибова. Под редакцией доктора Ю.Н.Марра, Тифлис: Из-во Грузинского филиала Академии Наук СССР, 1936, 141 с.

yerli və xarici bazarlarda əhəmiyyətli rolu araşdırılmış və müqayisəli şəkildə təhlil edilmişdir;

- Səfəvilər dövründə əhalinin etnik tərkibi ilk dəfə tədqiqata cəlb olunmuş və sübut edilmişdir ki, qədimdən Naxçıvanda yaşayan türk tayfaları bəhs edilən dövrdə də bu diyarın yerli və əsas sakinləri olmuş, həmin tayfalar Səfəvilər dövlətinin yaradılmasında və idarə edilməsində yaxından iştirak etmişlər;
- Naxçıvan bölgəsinin Səfəvilər dövrü tarixi coğrafiyası sistemli olaraq ilk dəfə obyektiv və müqayisəli şəkildə araşdırılmış, XX əsrin I rübündə Azərbaycan torpaqları hesabına yaradılmış indiki Ermənistan Respublikasının cənub-şərq hissəsinin tarixən olduğu kimi, bəhs edilən dövrdə də Naxçıvan bölgəsinə məxsus torpaqlar olduğu və ermənilərin Naxçıvana ərazi iddialarının əsassızlığı sübuta yetirilmişdir;

**Dissertasiyanın təcrübi əhəmiyyəti**. Dissertasiyanın materiallarından Azərbaycanın Səfəvilər dövrü tarixinin bir sıra məsələlərinin araşdırılmasında, Azərbaycanın, o cümlədən Naxçıvan bölgəsinin müvafiq tarixi mərhələsinə dair elmi-tədqiqat işlərinin, ümumiləşdirici əsərlərin yazılmasında, Naxçıvan tarixinə dair seçmə kursların tədrisində, uyğun problemlərin öyrənilməsində və s. istifadə oluna bilər. Həmçinin tədqiqat işi bundan sonra Azərbaycanın digər bölgələri üzrə müvafiq mövzuda yazılacaq elmi-tədqiqat işləri üçün təcrübə rolunu oynaya bilər.

**İşin aprobasiyası**. Dissertasiyanın mövzusu AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun 24 dekabr 2007-ci il tarixli iclasında (protokol №14) təsdiq olunmuş, iş 2008-2011-ci illərdə AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın orta əsrlər tarixi" şöbəsində yerinə yetirilmiş, həmin şöbənin 05 dekabr 2012-ci il tarixli iclasında (protokol №12) müzakirə olunmuş və müdafiəyə tövsiyə olunmuşdur. İşin əsas müddəaları haqqında Türkiyə, Rusiya və AMEA Naxçıvan Bölməsində keçirilmiş beynəlxalq simpozium və konfranslarda məruzələr edilmişdir. Dissertasiyanın əsas məzmunu müəllifin müxtəlif vaxtlarda respublikamızda və xaricdə nəşr olunmuş bir neçə məqaləsində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın obyeкti, məqsəd və vəzifələri, elmi yeniliyi və təcrübi əhəmiyyəti müəyyənləşdirilmiş, metodoloji əsası, mənbəşünaslıq bazası göstərilmiş, mövzunun araşdırılması səviyyəsi təhlil olunmuşdur.

Dissertasiyanın üç yarımfəsildən ibarət olan **"Səfəvilər dövründə Naxçıvanda siyasi vəziyyət"** adlı I fəslində XVI-XVIII əsrin 30-cu illərinin ortalarınadək olan dövrdə Naxçıvanda mövcud olmuş siyasi vəziyyət tədqiq edilmişdir. **"1501-1576-cı illərdə Naxçıvanda siyasi vəziyyət"** adlanan birinci yarımfəsildə Səfəvilər dövlətinin yarandığı vaxtdan XVI əsrin son rübünədək olan dövr, yəni şah I İsmayıl və onun oğlu Təhmasibin hakimiyyəti zamanı bölgədədəki siyasi vəziyyət araşdırılmışdır. Qeyd olunmuşdur ki, I İsmayılın taxta çıxmasından 1514-cü ildə Çaldıran döyüşünün baş verməsinədək olan müddətdə bölgə Ağqoyunlu dövlətinin son dövründən fərqli olaraq sabitlik və əmin-amanlıq illərini yaşamışdır. Osmanlılarla Səfəvilər arasında baş vermiş Çaldıran döyüşü qısa müddətə bu vəziyyəti mənfiyə doğru dəyişsə də, sonra şah I Təhmasibin hakimiyyətə keçməsinədək əvvəlki asayiş bərpa olunmuşdur. Şah I Təhmasibin hakimiyyətinin birinci 10 ilində (1524-1534) Qızılbaş əmirlərinin daxili çəkişmələrinin, ikinci 10 ilində (1534-1554) isə Osmanlı-Səfəvi müharibələrinin təsirindən Səfəvi torpaqlarında, xüsusilə də, Naxçıvan bölgəsində siyasi sabitlik tamamilə pozulmuşdur. Birinci 10 ildə Qızılbaş əmirlərinin hakimiyyət uğrunda apardıqları müharibələr digər Azərbaycan bölgələri kimi Naxçıvanda da siyasi vəziyyəti gərginləşdirmişdir. Məsələn, 1527-ci ilin iyununda Təkəli və Zülqədər tayfaları ilə birlikdə mübarizə aparan Rumlu tayfası ilə Ustaclı tayfası arasında Naxçıvanda Arpaçay yaxınlığında baş vermiş döyüş bunun bir nümunəsidir. İkinci 10 ildə osmanlıların Səfəvi torpaqlarına dəfələrlə etdikləri hücumlar bölgəyə xeyli ziyan vurmuşdur. Bu 20 ilin sonunda isə, yəni osmanlıların 1554-cü il "Naxçıvan səfəri" bölgə üçün baha başa gəlmiş, böyük dağıntılar və qırğınlar törədilmiş, hətta onlar ərazini tərk edərkən Naxçıvan şəhərini yandırmışlar. Ancaq 1555-ci il Amasiya sülhündən 1576-cı ilədək olan dövrdə, şah I Təhmasibin hakimiyyətinin ikinci yarısında bölgədə əmin-amanlıq və inkişaf illəri olmuşdur. Göründüyü kimi 1501-1576-cı illərin çox hissəsi digər Azərbaycan bölgələrində olduğu kimi Naxçıvanda da dinc quruculuq illəri olmuşdur. Lakin bu vəziyyət şah I Təhmasibin ölümü ilə nəinki dəyişdi, hətta əvvəlkindən də pis oldu.

Birinci fəslin **“XVI əsrin dördüncü rübü - XVII əsrin I yarısında Osmanlı-Səfəvi müharibələrinin Naxçıvana təsiri”** adlanan ikinci yarımfəsli XVI əsrin son rübündən başlayaraq XVII əsrin birinci yarısınadək olan dövrdə Naxçıvan bölgəsinin siyasi həyatından bəhs edir. Baş vermiş Osmanlı-Səfəvi müharibələrinə və onların acı nəticələrinə görə bu zaman kəsiyi Naxçıvan tarixinə ən qalmaqallı və acınacaqlı dövr kimi düşmüşdür. Buna görə də bu dövrdə İstanbul sülhünə (1590) qədər və ondan sonra XVII əsrin əvvəlləri də daxil olmaqla olan illər ərzində Naxçıvanda baş vermiş mürəkkəb siyasi hadisələr dissertasiyada bir neçə fərqli mərhələyə bölünmüşdür: 1) Şah I Təhmasibin hakimiyyətinin sonundan Osmanlı fəthinə qədər, 2) Osmanlı idarəçiliyi, 3) Səfəvilərin hakimiyyətinin bərpası mərhələləri. Şah I Təhmasibin ölümündən şah I Abbasın hakimiyyətə gəlməsinədək Səfəvilər dövlətində baş vermiş daxili çəkişmələr və Osmanlı dövləti ilə aparılmış müharibələrin mənfi təsirləri digər Azərbaycan bölgələrində olduğu kimi Naxçıvanda da siyasi sabitliyi pozmuşdur. Bu zaman Səfəvilər dövlətinin iqtisadi həyatında başlanan tənəzzülün dərinləşməsi aparılmış müharibələrdə də uğursuzluqlara səbəb olmuşdur. Nəticədə Naxçıvan da daxil olmaqla Azərbaycanın bir sıra bölgələri 1588-ci ildə osmanlılar tərəfindən tutulduqdan sonra 1603-cü ilədək onların hakimiyyəti altında idarə olunmuşdur. Şah I Abbas 1590-cı il, İstanbul müqaviləsindən sonra keçirdiyi islahatlar nəticəsində dövlətin qüdrətini bərpa edərək itirilmiş torpaqları osmanlılardan geri alsa da, bu yerlər, o cümlədən də Naxçıvan bölgəsi çox acınacaqlı duruma düşmüşdür. 1605-cı ildə şah tərəfindən Araz çayının sol sahili boyunca həyata keçirilmiş dağıntılar və “Böyük sürgün” siyasəti bölgənin xeyli hissəsinin dağıdılmasına və əhalisizləşdirilməsinə gətirib çıxarmışdır. Bundan sonra şah I Abbas hakimiyyətinin sonunadək osmanlılarla tez-tez müharibələr aparmışdır. Ondan sonrakı Səfəvi şahı I Səfinin hakimiyyəti zamanı da həmin müharibələr davam etmişdir. Osmanlılar 1635-cü ildə bölgəni tutaraq burada çoxlu dağıntılar törətmişlər. Bu dəfə də Naxçıvan şəhəri dağıdılmış, bölgə ərazisinə xeyli ziyan vurulmuşdur. Araşdırmalardan məlum olmuşdur ki, həmin vaxt əvvəlki dağıntılardan sonra hələ bərpa olunmamış bölgə yenidən dağıdılmış, həm də Naxçıvanda bu dəfəki dağıntılar daha geniş şəkildə həyata keçirilmişdir ki, ondan sonra bölgə xeyli müddət özünə gələ bilməmişdir. 1639-cu ildə osmanlılarla Səfəvilər dövləti arasında bağlanmış Qəsri-Şirin sülhü XVIII əsrin 20-ci illərinədək bu müharibələrə çox geniş bir fasilə vermişdir. Göründüyü kimi bu yarımfəsli əhatə edən dövrdə bölgə müharibələr, işğallar və onların nəticəsi

olan dağıntılar, əhalinin öldürülməsi və sürgün edilməsi, bir çox yaşayış yerlərinin boşaldılması kimi acınacaqlı hallarla üzləşmişdir. Ancaq bu qədər gərgin siyasi bir mərhələnin yaşanmasına baxmayaraq, sonda Osmanlı dövləti ilə uzunmüddətli sülh sazişi bağlanmışdır. Bunula belə demək olmaz ki, bundan sonrakı illərdə, yəni birinci fəslin **"XVII əsrin II yarısı – XVIII əsrin 30-cu illərinin ortalarınadək olan dövrdə Naxçıvanda siyasi vəziyyət"** adlanan üçüncü yarımfəslinin əhatə etdiyi dövrdə hər şey qaydasında olmuşdur. Qeyd etmək lazımdır ki, əvvəlki dövrdə baş verən müharibələr bu illərdə iqtisadi böhranın dərinləşməsinə səbəb olmuşdur ki, bu da Səfəvilər dövlətinin tənəzzülünə zəmin hazırlamışdır. Belə vəziyyət Naxçıvan bölgəsində də davam etmiş, nəticədə XVIII əsrin 20-ci illərinin əvvəllərində Naxçıvan da daxil olmaqla əksər Azərbaycan bölgələri osmanlılar tərəfindən işğal edilmişdir. Xəzəryanı bölgələr istisna olmaqla tutulmuş Azərbaycan torpaqlarında Osmanlı dövlətinin idarəçilik sistemi yaradılmışdır. Həmin vaxt Naxçıvan bölgəsi osmanlılar tərəfindən yaradılan "Naxçıvan sancağı" adlı inzibati ərazi vahidinə daxil edilmiş və 1736-cı ilədək Osmanlı dövlətinin tərkibində idarə edilmişdir.

Dissertasiyanın ıкinci fəslində **"Səfəvilər dövründə Naxçıvanın iqtisadi həyatı"**ndan bəhs edilmişdir. Bu fəslin "**Səfəvilər dövründə Naxçıvanda kənd təsərrüfatı"** adlanan birinci yarımfəslində bəhs edilən dövrdə bölgədə kənd təsərrüfatının vəziyyəti tədqiq edilmişdir. Göstərilmişdir ki, XVI əsrdə Səfəvilər dövlətinin yaranması Azərbaycanın bir cox bölgələri ilə yanaşı Naxçıvanda da ictimai-iqtisadi həyatın əksər sahələrində, o cümlədən də kənd təsərrüfatının inkişafında mühüm rol oynamışdır. Bu qüdrətli türk imperiyasının ilkin çağlarında, yeni yaranan hakimiyyətin möhkəmləndirilməsi və genişləndirilməsi ilə əlaqədar olaraq, digər sahələrdə olduğu kimi kənd təsərrüfatında da böhranlı vəziyyətin hökm sürməsinə baxmayaraq, sonrakı illərdə burada durmadan canlanma və inkişaf başladı. Bunun başlıca səbəbi ölkə ərazisində daxili və xarici sabitliyin yaradılması idi. Artıq Ağqoyunluların son dövründə feodal çəkişmələri və pərakəndəliyi ucbatından təsərrüfat həyatına dəyən ziyanlara son qoyulmuşdu. Əlavə olaraq, ilk vaxtlar Səfəvilərin dövləti iqtisadi cəhətdən gücləndirmək və xəzinəyə verilən gəlirlərin axınını artırmaq məqsədilə kəndlilərin vəziyyətini müəyyən qədər yüngülləşdirməyə məcbur olması bu sahəyə xeyli kömək etmişdi. Lakin Səfəvilərin hakimiyyəti dövründə bir cox müharibələrin və daxili çəkişmələrin baş verməsi kənd təsərrüfatına hər dəfə xeyli ziyan vurur və onun inkişafını ləngidirdi. Xüsusilə də əhəmiyyətli hərbi-strateji mövqeyinə görə Naxçıvanın tez-tez

Osmanlı-Səfəvi müharibələrinin döyüş meydanına çevrilməsi, burada kənd təsərrüfatının dağıdılmasına və tənəzzülünə səbəb olurdu. Buna baxmayaraq sabitlik illərində bölgədə təsərrüfat həyatının nisbi yüksəliş çağları davam edirdi.

Bu yarımfəsildə aparılan araşdırmalardan məlum olmuşdur ki, əvvəlki dövrlərdə olduğu kimi Səfəvilər dövründə də Naxçıvanda əhalinin kənd təsərrüfatı sahəsində əsas məşğuliyyəti əkinçilik və maldarlıq olmuşdur. Xüsusilə də bu zaman Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvanda da kənd təsərrüfatının əkinçilik sahəsi daha çox inkişaf etmişdi. Belə ki, Naxçıvanın iqtisadi həyatında ticarət və sənətkarlığın da mühüm rol oynamasına baxmayaraq, burada əhalinin çox hissəsi əkinçiliklə məşğul olurdu. Bölgənin təbii-coğrafi şəraiti yarımoturaq və oturaq həyat tərzi keçirən əhalinin taxılçılıq, bağçılıq və bostançılıqla məşğul olmasına kömək edirdi. Müxtəlif növ taxıl və texniki bitkilər, bostan-tərəvəz məhsulları, çoxlu sayda meyvə sortları və s. yetişdirilməsi bunu deməyə əsas vermişdir. Dissertasiyada bəhs edilən dövrdə bölgə ərazisində əkinçiliyin geniş yayılması ilə yanaşı maldarlığın da inkişaf etdiyi müəyyən edilmişdir. Bölgənin təbii-coğrafi şəraitindən asılı olaraq, xırdabuynuzlu heyvanların bəslənilməsi əhalinin ət məhsullarına tələbatını ödəməklə yanaşı sənətkarlığın da əsas xammal bazalarından birini təşkil etmişdir. Ümumiyyətlə bu yarımfəsildə aparılan araşdırmalardan məlum olmuşdur ki, Səfəvilər dövründə Naxçıvan bölgəsində kənd təsərrüfatı mallarının istehsalı bölgənin iqtisadiyyatında aparıcı yerlərdən birini tutmuş, istehsal olunan taxılçılıq, bağ-bostan, meyvəçilik, pambıqçılıq, heyvandarlıq və s. məhsullar əhalinin zəruri tələbatını ödəməklə yanaşı, Azərbaycanın digər bölgələrinə və xarici ölkələrə də ixrac edilmişdir.

İkinci fəslin **"Sənətkarlıq"** adlanan ikinci yarımfəslində Səfəvilər dövründə Naxçıvan bölgəsinin iqtisadi həyatında mühüm yer tutan müxtəlif sənət növləri, onların inkişafı, bu sahədə istehsal edilən məhsullar və s. tədqiq edilmişdir. Qeyd edilmişdir ki, Səfəvilər dövründə sənətkarlıq dövlət xəzinəsinin əsas gəlir mənbələrindən birini təşkil etdiyindən, Səfəvi hökmdarları hər zaman bu sahənin inkişafına xüsusi diqqət yetirmişdilər. Bunun üçün bir sıra dövlət əhəmiyyətli tədbirlər həyata keçirilirdi. Məsələn, dövrün mənbələlərindən aydın olduğu kimi 1565-ci ildə şah I Təhmasibin 30 min tümən məbləğində "tamğa" vergisini, o cümlədən də Naxçıvanın tamğasını ləğv etməsi məhz sənətkarlıq və ticarətin inkişafına kömək məqsədini güdmüşdür.

Bu dövrdə bölgə ərazisində geniş yayılmış toxuculuq, memarlıq, dərzilik, məişət əşyaları və silah hazırlama, misgərlik, boyaqçılıq və s. kimi

sənət növlərinin hər biri ayrı-ayrılıqda araşdırılmış və dissertasiyada onların haqqında müəyyən qədər bəhs edilmişdir. Qeyd edilmişdir ki, naxçıvanlı ustalar tərəfindən hazırlanan sənətkarlıq məhsulları yerli əhalinin zəruri tələbatını ödəməklə yanaşı ölkə hüdudlarından kənarda da bölgəyə şöhrət qazandırmışdır. Sənətkarlıqla bağlı aparılmış araşdırmalardan məlum olmuşdur ki, qədimdən Azərbaycanın sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazanan Naxçıvan diyarı Səfəvilər zamanında da bu cəhətdən öz əhəmiyyətli mövqeyini qoruyub saxlamışdır. Düzdür müxtəlif illərdə baş verən müharibələrin dağıdıcı təsirləri bu sahədən də yan keçməmişdir. Amma bir çox sahələrdə insanların zəruri ehtiyacını ödəyən sənətkarlıq müəyyən vaxtlarda tənəzzül edərək zəifləsə də, sonralar yenidən əvvəlki vəziyyətinə qayıtmışdı.

Bu fəslin **“Ticarət”** adlanan üçüncü yarımfəslində bölgənin iqtisadi həyatında aparıcı yerlərdən birini tutan ticarət tədqiqat mövzusuna çevrilmişdir. Daxili və xarici ticarət əlaqələrinin bölgə iqtisadiyyatında mühüm yer tutduğu müəyyən edilmişdir. Qeyd edilmişdir ki, XVI əsrdə Səfəvilər dövləti yarandıqdan sonra digər Azərbaycan bölgələri ilə yanaşı Naxçıvanda da Şərq və Avropa ölkələri ilə ticarət əlaqələri qurulmuşdu. Hindistan, Çin, Mərkəzi Asiya ölkələri, Qara dəniz və Aralıq dənizi vasitəsilə Avropa ölkələrini Səfəvi torpaqları ilə birləşdirən yollar Naxçıvan ərazisindən keçdiyindən burada ticarətin inkişafı üçün böyük imkanlar yaranmışdır. Böyük İpək Yolu digər Azərbaycan bölgələri kimi Naxçıvan ərazisində də iqtisadiyyatın və mədəniyyətin inkişafına güclü təsir göstərmişdir. Bölgədən bir neçə istiqamətdə ticarət karvanlarının keçdiyi qeyd edilmişdir. Bunlardan biri Şamaxı-Qarabağ-Naxçıvan-İrəvan və sonra Osmanlı ərazisi, digəri Təbriz-Mərənd-Naxçıvan-İrəvan-Ərzurum-İstanbul yolu olmuşdur. Rusiya istiqamətində isə Həştərxan-Moskva yolundan istifadə edilmişdir. Bu yarımfəsildə, həmçinin bəhs edilən dövrdə Araz çayı üzərində fəaliyyət göstərən bərə nəqliyyatının, bölgə ərazisində mövcud olan körpülərin, müxtəlif ticarət məntəqələrinin – karvansaraların, bazarların, dükanların və s. obyektlərin ticarətin inkişafındakı rolundan bəhs edilmişdir. Həmçinin bu yarımfəsildə Səfəvilər dövründə naxçıvanlı tacirlərin Osmanlı dövləti, Yunanıstan, Venesiya, Portuqaliya, İspaniya, İtaliya, Rusiya və başqa ölkələrlə ticarət əlaqələri də tədqiq edilmişdir. Yarımfəsildə Naxçıvanın ticarət həyatı ilə bağlı aparılan tədqiqatlardan aydın olmuşdur ki, bəhs edilən dövrdə Naxçıvan bölgəsi ticarətin inkişafı baxımından Azərbaycanın digər bölgələrindən geridə qalmamış və xeyli irəli gedərək, şərqlə qərbi birləşdirən karvan yollarının kəsişmə nöqtələrindən biri üzərində mühüm bir məntəqə rolunu oynamışdır. Hətta

XVII yüzilliyin iqtisadi tənəzzül tufanı bölgənin ticarət əlaqələrini sarsıtsa da, o, yenidən bərpa olunmuşdur.

İkinci fəslin "**Şəhərlər**" adlanan dördüncü yarımfəslində Səfəvilər dövründə Naxçıvan bölgəsində mövcud olmuş şəhərlər tədqiqat obyektinə çevrilmişdir. Müəyyən edilmişdir ki, bu zaman bölgə ərazisində Naxçıvan, Ordubad, Culfa, Qarabağlar, Əylis, Azad şəhərləri olmuşdur. Yarımfəsildə həmin şəhərlərin hər biri ayrı-ayrılıqda tədqiqata cəlb edilmişdir. Onların yerləşdiyi ərazi, plan quruluşu, memarlıq abidələri, əhalisi, şəhər təsərrüfatı, insanların məşğuliyyəti və s. sahələr araşdırılmışdır. Səfəvilər dövründə Naxçıvan ölkəsinin iqtisadi həyatında buradakı şəhərlərin böyük rolu olmuşdur. Bu şəhərlər əsas ticarət və sənətkarlıq mərkəzləri kimi nəinki ölkədaxili, həmçinin beynəlxalq miqyaslı əhəmiyyət kəsb etmişdilər. Səfəvilərin hakimiyyəti zamanı iqtisadi inkişaf şəhərlərin də çiçəklənməsinə yol açmışdır. Hətta bəzi xırda yaşayış yerləri, məsələn, Culfa bu dövrdən şəhər kimi təşəkkül tapmağa başlamışdır. Lakin bununla yanaşı qeyd etmək lazımdır ki, bəhs edilən dövrdə Osmanlı-Səfəvi müharibələri üzündən şəhərlər xeyli ziyan çəkmişdir. Müharibələr zamanı daha çox işğal edilən yerlər insanların sıx məskunlaşdığı yaşayış məskənləri olduğundan şəhərlər belə təcavüzlərə tez-tez məruz qalmışdılar. Bu isə əvvəllər zəngin və gözəl yaşayış yerlərinin müharibələrdən sonra dağıdılmasına və əhalisiz viranəliyə çevrilməsinə gətirib çıxarırdı. Belə hallar müvəqqəti davam etsə də, yaxşı ki, hər şey sonra yenidən bərpa edilirdi. Ən pisi isə o idi ki, əvvəlki inkişafı əldə etməyə müəyyən qədər vaxt sərf olunur, bu isə həmin şəhərlərin ümumi inkişaf səviyyəsini ləngidirdi.

Bu yarımfəsillə bağlı araşdırmalardan məlum olmuşdur ki, bəhs edilən dövrdə bölgənin ictimai-siyasi, iqtisadi və mədəni cəhətdən inkişaf etmiş iri yaşayış məntəqələri sayılan şəhərlər Osmanlı-Səfəvi müharibələri zamanı müəyyən qədər zərər çəksələr də, hətta böyük dağıntılara məruz qalaraq viranəliyə çevrilsələr də, əhalisi başqa yerlərə köçürülsə də sonradan bərpa olunmuş, dirçəlmiş və bu qədim diyarın inkişafında mühüm rol oynamışlar. Ancaq bu şəhərlərin bəzisi, o cümlədən Azad şəhəri özünün əvvəlki qüdrətini bərpa edə bilməmiş, köçürüldükdən sonra qayıdan az miqdar əhalinin yaşadığı kiçik yaşayış məskəninə çevrilmişdir.

Dissertasiyanın üçüncü fəslində **"Səfəvilər dövründə Naxçıvan bölgəsinin əhalisi və tarixi coğrafiyası"** tədqiq edilmişdir. Fəslin "**Səfəvilər dövründə Naxçıvanın əhalisi"** adlanan birinci yarımfəslində hələ qədimdən türk tayfalarının yerli əhalinin əksər hissəsini təşkil etməsi faktının bəhs edilən dövrdə də dəyişilməz qaldığı sübut edilmişdir.

Tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, Səfəvilər zamanı Naxçıvan bölgəsində Kəngərli, Zikri, Beyləqani, Məfruzi, Qızıllı-Şəkərli, Baharlu, Həramilu, Dövəllu, Sədli, Qarayaztəkəlu, Qəzalu, Qumi, Gəncəli, Marağeyi, Naxçıvani, Ordubadi, Salehi, Təbrizi, Təsuci, Cəmşidli, Corsi və s. türk tayfaları yaşamışdır. Bu tayfalar arasında Kəngərlilər nisbətən geniş tədqiqat obyektinə çevrilmişdir. Kəngərli tayfası, onun Bilici, Səlmanlı, Yurtçu və s. qolları Səfəvilər dövründə Naxçıvan əhalisinin müəyyən hissəsini təşkil etmişdir. Kəngərlilər bölgənin idarə edilməsində əsas aparıcı tayfa olmuşdur. Belə ki, XVI-XIX əsrin əvvəllərində Ustaclı-Kəngərli tayfasının başçıları irsi olaraq Naxçıvan ölkəsinin hakimləri olmuşlar. Məhəmməd Xudabəndənin hakimiyyəti zamanı (1578-1587) Naxçıvanın idarəçiliyi Əbdülqəni Sultan Ustaclıya verilmiş, I Şah Abbasın hakimiyyəti zamanı Kəngərli qəbiləsinin başçısı və Naxçıvan hakimi Maqsud Sultan olmuşdur. Artıq 1628-ci ildə Maqsud Sultan Naxçıvanla yanaşı Xorasan Kəngərlilərinin də başçısı vəzifəsini tutmuşdur. I Şah Abbasın xələfləri dövründə Nadir bəy Rzaəddin xan (1647), Əliqulu xan (1668), Murad xan (1668-1669), Şərəf xan (1669-1678), Məhəmməd Rza xan (1678-1691) Kəngərlilər Naxçıvana hakimlik etmişdilər. Hakimiyyət illəri dəqiq təyin olunmasa da, Məhəmməd Rza xandan sonra Naxçıvan ölkəsini Səfiqulu xan Kəngərlinin idarə etdiyi məlum olmuşdur. Araşdırmalar nəticəsində aydın olmuşdur ki, bu tayfanın nümayəndələri qısa fasilələr istisna olmaqla Səfəvilər dövründə bölgənin hakimləri olmuşlar. Digər tərəfdən nəinki bölgədə, hətta Səfəvilər dövlətinin bir sıra vilayətlərində bu tayfanın Səfəvi şahları tərəfindən yüksək vəzifələrə təyin edilmiş nümayəndələri hər zaman hərbi və idarəetmə sahəsində əvəzedilməz xidmətləri və qəhrəmanlıqları ilə seçilmişlər.

Dissertasiyada göstərilmişdir ki, tədqiq edilən dövrdə Naxçıvanda yaşayan aborigen türk tayfaları ilə yanaşı, bir sıra türk tayfaları – Qarxun, Cığatay, Yaycı və s. XIII əsrdə monqol yürüşləri zamanı bu yerlərə köçürülmüşlər. Göstərilən həmin tayfaların adlarına uyğun olaraq bölgədə yaşayış yerləri yaranmışdır. Belə ki, Cığataylılar Naxçıvan şəhərindəki Cığatay məhəlləsində, Yaycılılar Şərur və Culfa rayonlarının Yaycı kəndlərində, Qarxunlular isə Şərur rayonunun Qarxun kəndində məskən salmışlar. Bu səbəbdən də yeni yaranan yaşayış məskənləri həmin tayfaların adları ilə adlanmışdır. Qədimdən Naxçıvan ərazisinin cənubunda yaşayan türk tayfalarından biri də Sədli tayfası olmuşdur. Bəhs edilən dövrdə yerli əhalinin müəyyən hissəsini təşkil etmiş Sədlilərin əsas yaşayış yeri İrəvan əyalətinin cənub-şərqində yerləşən Naxçıvan ölkəsi, Mağazberd və Sürməli mahalları olmuşdur. Çuxur-Səd toponiminin də elə bu tayfanın

adından yarandığı göstərilmişdir. Kəngərlilər kimi mübariz və döyüşkən olduqları üçün bu tayfa da yaşadığı bölgədə mühüm rol oynamış, hətta sakini olduqları əyalət müəyyən müddətə onların adını daşımışdır. Yarımfəsildə sübut edilmişdir ki, bu dövrdə Naxçıvan bölgəsində əhalinin əksər hissəsini adları sadalanan türk tayfaları təşkil etmişdir.

Dissertasiya işində bu gün Azərbaycan tarixi üçün önəmli sahələrdən biri olan ölkənin tarixi coğrafiyasının araşdırılması məsələsi də nəzərdən qaçmamışdır. Belə ki, Səfəvilər dövründə Naxçıvan bölgəsinin sərhədləri, tabe olduğu bəylərbəyilik, inzibati ərazi quruluşu və s. məsələlər, onların müxtəlif illərdə müəyyən səbəblərdən dəyişdirilmələri kimi problemlər bu fəslin "**Səfəvilər dövləti tərkibində Naxçıvan bölgəsinin tarixi coğrafiyası**"adlı yarımfəslində tədqiq edilmişdir. Tədqiqatların nəticələrindən məlum olmuşdur ki, Səfəvilər dövründə bölgə əvvəlcə Azərbaycan, sonra isə Çuxur-Səd bəylərbəyiliyinin tərkibində olmuş və "ölkə" inzibati ərazi statusunu daşımışdır. Bu zaman bəylərbəyiliklər hər biri ayrı-ayrı vilayət, ölkə, mahal və nahiyələrdən ibarət olmuşdur ki, Naxçıvan da həmin inzibati ərazi vahidlərindən biri olan "ölkə" statusunu daşımışdır. Müxtəlif mənbələrə istinad edərək "ölkə" termininin izahında göstərilmişdir ki, Səfəvilər dövründə "ölkə" (türkcə "ulka") ümumi termin kimi müxtəlif əsaslarla bağışlanmış ərazini - müvəqqəti və ya daimi tiyulu, irsi mülkiyyət kimi tam vergi toxunulmazlığı hüququ olan (müafi) və nəhayət vergi toxunulmazlığı hüququ olmayan soyurqalları ifadə etmişdir. Sonuncu halda ölkənin sahibi hakim – yerli idarəçi adlanırdı. Tayfa əyanları arasında otlaq sahələri və torpaq fondunun bölüşdürmə hüququ ilə tayfa başçısı olan hər hansı bir əmirə idarəetmə hüququ ilə hədiyyə edilmiş ərazi də ölkə adlanırdı. Bu halda ölkə tez-tez həmin əmirin ailəsinə irsi verilirdi. Belə irsiyyətin düz xətlə - birbaşa ötürülməsi vacib deyildi. Bu zaman bağışlanma şah tərəfindən mütləq təsdiq edilirdi. Dissertasiyada müəyyən edilmişdir ki, şahın hədiyyə etdiyi irsi ölkələrdən biri də Naxçıvan olmuşdur. Həmçinin göstərilmişdir ki, bəhs edilən dövrdə İrəvan, Şurəgəl və Qapanat da eyni statusda olmuşdur. Qeyd edilmişdir ki, Səfəvilər dövrünə aid bəzi mənbələrdə və tarixi sənədlərdə bölgə ərazisi "Naxçıvan tüməni" kimi verilmişdir. Lakin Naxçıvanın bu inzibati ərazi statusunu bəhs edilən dövrdən əvvəlki yüzilliklərdə daşıdığı məlumdur. Orta əsrlərə aid araşdırmalardan aydın olmuşdur ki, "tümən" termini çoxmənalı söz kimi hərbi baxımdan 10 min döyüşçünü birləşdirən, pul vahidi kimi 10 min dinara bərabər olan, inzibati baxımdan 10 min əsgər verə bilən bir ölçünü ifadə etmişdir. Həmçinin XIII-XIV əsrlərdə Araz çayının şimal və cənubundakı geniş ərazini, yəni Qafan və Makunun da

daxil olduğu torpaqları əhatə edən Naxçıvanın Azərbaycanın 9 tümənindən biri olduğu qeyd edilmişdir. Yəni Naxçıvan ətraf yerləri ilə birlikdə Elxanilər dövründə ayrıca tümən olmuş, Səfəvilər dövründə də "Naxçıvan tüməni" kimi adlanmaqda davam etmişdir. Deməli əvvəlki yüzilliklərdə böyük inzibati ərazini özündə birləşdirən Naxçıvan tüməni Səfəvilər dövründə də "ölkə" inzibati vahidi olmasına baxmayaraq, "tümən" adını da daşımışdır. Yarımfəsildə belə bir nəticə əldə olunmuşdur ki, tədqiq edilən dövrdə Naxçıvan üçün "tümən" inzibati bölgünü deyil, sadəcə əvvəlki adı ifadə etmişdir.

Bu yarımfəsildə osmanlıların tərtib etdikləri "Naxçıvan sancağının müfəssəl dəftəri"nə əsasən buradakı nahiyələrin sərhədləri, bu nahiyələrin müasir Naxçıvan Muxtar Respublikasının xəritəsinə görə əhatə etdikləri ərazilər və bu dövrdə Naxçıvan ölkəsi ilə həmsərhəd olmuş qonşu bölgələr müəyyən edilmişdir. Tədqiqatların nəticələrinə əsasən sübut edilmişdir ki, Dərələyəz və Sisyan kimi tarixi Azərbaycan bölgələri nəinki Osmanlı idarəçiliyi dövründə, ümumiyyətlə Səfəvilər dövründə Naxçıvan ölkəsinin tərkibində olmuşlar. Səfəvilər zamanı Naxçıvan ölkəsinin tarixi coğrafiyası, xüsusilə, Osmanlı imperiyasının bölgəni tutduğu (1588-1603; 1724-1736) zaman təşkil edilmiş Naxçıvan sancağının sərhədləri ilə indiki Naxçıvan Muxtar Respublikasının ərazisi müqayisə olunaraq vaxtilə tarixi Azərbaycan torpaqları olan və Naxçıvanın inzibati ərazi bölgüsündə birləşən bir sıra ərazilərin sonralar ermənilərə verildiyi müəyyən olunmuşdur. Araşdırmalardan məlum olmuşdur ki, indiki Ermənistan Respublikasının Ararat (Vedi) rayonunun cənub-şərq hissəsi, Yexeqnadzor (Dərələyəz) rayonu bütünlüklə, Cermuk (İstisu) rayonunun yarısı, Sisiyan (Qarakilsə) rayonunun  böyük bir hissəsi və Mehri daxil olmaqla rayonun bir neçə yaşayış məntəqəsi Səfəvilər dövründə Naxçıvan ölkəsinə daxil olmuşdur. Bütün bunlar bölgəyə qarşı əsassız ərazi iddiaları irəli sürən və sürməkdə davam edən erməni millətçiləri və onların havadarlarına qarşı tutarlı faktlarla cavab verməyə imkan yaradır.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiq olunan mövzu ilə bağlı ümumiləşdirmələr aparılaraq elmi nəticələr çıxarılmışdır. Aparılan araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvan diyarı Səfəvilər dövründə də inkişaf etmiş və daim diqqətdə olan Azərbaycan bölgələrindən biri olmuşdur. Bu üstünlükləri bir tərəfdən onun Azərbaycan daxilində əhəmiyyətini artırmış, digər tərəfdən isə müharibələrin hədəfinə çevrilməsinə səbəb olmuşdur. Lakin bütün hallarda bölgə Azərbaycanın inkişaf etmiş mərkəzlərindən biri kimi öz əhəmiyyətli mövqeyini qoruyub saxlamağa müvəffəq olmuşdur.

**Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı məqalələrində öz əksini tapmışdır:**

1. Osmanlı işğalı zamanı Naxçıvanın inzibati ərazi bölgüsü (Səfəvilər dövrü) // AMEA Tarix İnstitutunun Elmi Əsərləri, 2008, № 26, s. 72-78
2. Naxçıvanda ictimai vəziyyət (Səfəvilər dövrü) // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2009, № 1, s. 85-92
3. XVI əsrin sonu XVII əsrin əvvəllərində Naxçıvanda siyasi vəziyyət // Tarix və onun problemləri (Xüsusi buraxılış), 2009, s. 21-29
4. XVI əsrin birinci yarısında Naxçıvanda siyasi vəziyyət // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2010, № 1, s. 66-72
5. Səfəvilər dövründə Naxçıvanda kənd təsərrüfatı // Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri. İctimai elmlər seriyası, 2010, № 2 (34), s. 58-61
6. XVII əsrin II yarısı - XVIII əsrin əvvəllərində Naxçıvanda siyasi vəziyyət // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2011, № 1, s. 5-11
7. Səfəvilər dövründə Naxçıvanın əhalisi // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2011, № 3, s. 49-56
8. Naxçıvan şəhəri Səfəvilər dövründə // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2012, № 1, s. 74-82
9. Азербайджанский город Джульфа в период Сефевидов // Гилея: Науковый Вестник, Киев: 2012, № 9, с. 194-197
10. Səfəvi dövrü mənbələri Naxçıvan şəhərinin yaranma tarixi haqqında / Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi. 20-24 iyul 2011-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları. Naxçıvan: Əcəmi, 2012, s. 215-220
11. Политика «Великий сургун» сефевидского правителя Шаха Аббаса I и ее горькие последствия / В мире научных открытий. Материалы IV Международной научно-практической конференции 24 июня 2012 г. Москва: Спутник, 2012, с. 10-15

12. Osmanlı yönetimi zamanında Azerbaycanın Nahçıvan bölgesi / II. Uluslararası Aras havzası sempozyumu. 13-15 Aralık 2011- İğdır. Erzurum: Zafer Ofset Ltd., 2012, s. 338-343
13. Səfəvilər dövründə Naxçıvanda s□n□tkarl□q // G□nc□ Düvl□t Universitetinin Elmi Xəbərləri. Fundamental, humanitar və təbiət elmləri seriyası, 2012, № 3, s. 83-87. S.Hacıyeva ilə müştərək.

**И.Н.Алиев**

## Нахчыванский регион Азербайджана в составе Сефевидского государства

## РЕЗЮМЕ

Диссертация, состоящая из введения, трёх глав, заключения, списка литературы и приложений, посвящена исследованию периоду истории Сефевидов Нахчыванского региона.

Во введении обоснована актуальность темы, определены её цели и задачи, методологическая основа, научная новизна, научно-практическое и теоретическое значение, источниковая база, уровень разработанности.

В первой главе, названной «Политическое положение в Нахчыванском регионе в период Сефевидов», рассмотрены политическое положение Нахчыванского региона в период XVI - начала XVIII века. В результате исследований стало известным, что политическая стабильность в регионе неоднократно нарушилась, а причиной тому в основном были Османо-Сефевидские войны.

Во второй главе диссертации исследована «Экономическая жизнь Нахчывана в период Сефевидов». Здесь в отдельности привлечены к исследованию и анализированы сельское хозяйство, торговля, ремесленные отрасли, города региона.

В третьей главе, названной «Население и историческая география Нахчывана в период Сефевидов», исследованы население, границы, административно-территориальная структура Нахчыванского региона.

В заключительной части диссертации нашли свое отражение выводы, вытекающие из содержания исследования.

В конце диссертации даны список использованной литературы и карты, отражающие границы и относящиеся к рассматриваемому периоду региона.

**I.N.Aliyev**

## Azerbaijan's Nakhchivan region in the composition of the Safavids state

### SUMMARY

The dissertation consisting of introduction, three chapters, conclusion, list of references and supplements, has been devoted to the study of the history of the Safavids period of Nakhchivan region.

In the introduction the actuality of the work was grounded, it was dealt with the goals and objectives, the methodological basis, scientific novelty, practical and theoretical importance, base of origin and the level of investigation of the subject.

In the first chapter named as "The political situation in Nakhchivan region in the Safavids period", the political situation of Nakhchivan region in XVI- the beginning of XVIII centuries were investigated. As the result of investigations it was known that, political stability in the region have repeatedly violated and the main reason for this was Ottoman-Safavid wars.

In the second chapter of the dissertation work, "The economic life of Nakhchivan in the Safavids period" has been investigated. Here, agriculture, trade, craftsmanship fields, cities of the region have seperately involved to the investogation and was analysed.

In the third chapter named as "The population and historical geography of Nakhchivan in the Safavids period", population, borders, administrative-territorial structure of Nakhchyvan region have been investigated.

In the conclusion part of the work, the results gained for the investigation have been reflected.

At the end of the dissertation, list of the references and the maps reflecting the borders of the region in the mentioned period were given.

Çapa imzalanmışdır: 10.06.2013

Formatı: 60/84, 1/16

Sifariş: № 63

Sayı: 100

**AMEA Naxçıvan Bölməsinin “Tusi” nəşriyyatında çap edilmişdir.**

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**

**НАХЧЫВАНСКОЕ ОТДЕЛЕНИЕ**

*На правах рукописи*

**ИЛЬХАМИ НИЗАМ оглы АЛИЕВ**

# НАХЧЫВАНСКИЙ РЕГИОН АЗЕРБАЙДЖАНА В СОСТАВЕ СЕФЕВИДСКОГО ГОСУДАРСТВА

**Специальность: 5503.02 – Отечественная история**

**А В Т О Р Е Ф Е Р А Т**

**Диссертации на соискание ученой степени**

**доктора философии по истории**

**НАХЧЫВАН – 2013**